# AZƏRBAYCAN RESPUBLİKASININ
# Q A N U N U

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik və əlavələr edilməsi barədə

**Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:**

**"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №12, maddə 740; 2002-ci il, №12, maddə 706; 2003-cü il, №1, maddə 23, №8, maddə 428, №12, I kitab, maddələr 676, 698; 2005-ci il, №1, maddə 1, №6, maddə 462, №8, maddə 684, №10, maddələr 873, 905, №12, maddə 1083; 2006-cı il, №3, maddələr 223, 225, №6, maddə 481, №12, maddələr 1015, 1029; 2007-ci il, №2, maddə 80, №12, maddə 1203; 2008-ci il, №3, maddə 158, №6, maddə 462, №7, maddə 602, №12 maddə 1047; 2009-cu il, №1, maddə 5, №2, maddə 56, №3, maddə 160, №7, maddə 519) aşağıdakı dəyişiklik və əlavələr edilsin:**

**1. 18.11-ci, 18.12.1-ci, 18.12.2-ci, 18.33-cü, 18.34-cü, 18.48-ci maddələrdə ismin müvafiq hallarında "apellyasiya komissiyası" sözləri ismin müvafiq hallarında "apellyasiya şurası" sözləri ilə əvəz edilsin;**

**2. aşağıdakı məzmunda 18.34-1-ci, 18.34-2-ci və 18.34-3-cü maddələr əlavə edilsin:**

**"18.34-1. Əmtəə nişanının geniş tanınmasına dair Apellyasiya şurasına ərizənin verilməsi üçün – 150 manat.**

**18.34-2. Geniş tanınmış əmtəə nişanına qarşı verilmiş etirazla bağlı Apellyasiya şurasına müraciət üçün – 120 manat.**

**18.34-3. Apellyasiya şurasına etirazın baxılma müddətinin altı aydan çox olmayan müddətə uzadılması üçün – 40 manat.";**

**3. aşağıdakı məzmunda 18.35-1-ci maddə əlavə edilsin:**

**"18.35-1. Əmtəə nişanları və coğrafi göstəricilərin qeydə alınması ilə bağlı dövlət rüsumunun ödənilməsi müddətinə əlavə olaraq dörd ay möhlət verilməsi üçün – 30 manat.";**

**4. aşağıdakı məzmunda 18.39-1-ci maddə əlavə edilsin:**

**"18.39-1. Qeydiyyata alınmış əmtəə nişanına dair müstəsna hüquqların müqavilə əsasında başqa şəxsə girov kimi verilməsi ilə bağlı girov müqaviləsinin qeydiyyatı üçün – 60 manat.".**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 20 oktyabr 2009-cu il**
**№ 889-IIIQD**